**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№375/4** **23 aprel 2025-ci il**

**600 saylı (düzəliş edilmiş) BAS və ondan irəli gələn digər standartlara edilən düzəlişlərə dair Şərh barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 1.2.6-cı "600 saylı (düzəliş edilmiş) "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi (o cümlədən bölmə auditorlarının işi)" Beynəlxalq Audit Standartına dair şərhin hazırlanması" bəndinin icrası ilə əlaqədar Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov tərəfindən hazırlanmış Şərhin layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "600 saylı (düzəliş edilmiş) "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi" BAS və 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlərə dair Şərh" bəyənilsin.
2. Auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, öz fəaliyyətlərində "600 saylı "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi" BAS və 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlər"in tətbiqini təmin etsinlər.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, 2025-ci ilin II rübündə auditor təşkilatları və sərbəst auditorlar üçün həmin Şərhə dair seminarın keçirilməsi təmin edilsin.
4. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində bu qərarın və "600 saylı "Xüsusi Mülahizələr – Qrup Maliyyə Hesabatlarının Auditi" BAS və 600 saylı (düzəliş edilmiş) BAS-dan irəli gələn digər standartlara edilən müvafiq və məntiqli düzəlişlərə dair Şərh"in auditor təşkilatlarına və sərbəst auditorlara göndərilməsi və Palatanın internet səhifəsinin "Beynəlxalq Audit Standartları" bölməsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**